# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/13** **27 aprel 2020-ci il**

**Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə Tədbirlər Planının təsdiq edilməsi barədə**

"Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 1859 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Açıq Hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı Azərbaycan Respublikası Auditorlar Palatasının 2020-ci il üzrə "Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. "Tədbirlər Planı"nda nəzərdə tutulmuş işlərin məsul icraçılar tərəfindən vaxtında və yüksək səviyyədə yerinə yetirilməsi təmin edilsin.
3. "Tədbirlər planı" elektron qaydada Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilsin.
4. Auditorlar Palatasının "Tədbirlər Planı"nın icrası üzrə məsul şəxs Hüquqi təminat idarəsinin rəisi Maarif Abbasov təyin edilsin.
5. "Tədbirlər planı"nda nəzərdə tutulan işlərin icrası barədə illik hesabat hər il dekabrın 30-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilsin.
6. Bu sərəncamın və "Tədbirlər Planı"nın mətnlərinin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**